# Milli Məclisdə Azərbaycan ilə UNICEF arasında birgə layihələr çərçivəsində gələcək fəaliyyət istiqamətləri müzakirə olunub

Noyabrın 2-də Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov UNICEF-in Azərbaycan nümayəndəliyinin yeni rəhbəri Aleks Haykenslə görüşüb.

Bu barədə AZƏRTAC-a parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, görüşdə komitə sədri Əhliman Əmiraslanov ötən illər ərzində Azərbaycanın UNICEF ilə birgə əməkdaşlığı sahəsində əldə olunan nailiyyətlər barədə məlumat verib, bu əlaqələrin bundan sonra da uğurla davam edəcəyinə əminliyini vurğulayıb.

UNICEF-in ölkəmizdəki nümayəndəliyinin rəhbəri Aleks Haykens öz növbəsində Azərbaycan hökuməti ilə UNICEF-in birgə fəaliyyəti nəticəsində həyata keçirilmiş layihələrin əhəmiyyətini qeyd edərək, bu günə qədər görülən işləri yüksək qiymətləndirib. O, UNICEF-in Azərbaycan nümayəndəliyi olaraq səhiyyə qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində hər zaman Milli Məclis, xüsusilə də Səhiyyə komitəsi ilə əməkdaşlığa hazır olduğunu bildirib.

Söhbət zamanı hazırda UNICEF-in Azərbaycandakı fəaliyyətinin əsas prioritet sahələri olan yeni doğulan körpələrin ana südü ilə qidalanması və məktəbəqədər təhsil müəssisələrində uşaqların keyfiyyətli qidalanması problemləri ətrafında geniş fikir mübadiləsi aparılıb, adıçəkilən istiqamətlərdə birgə layihələr çərçivəsində gələcək fəaliyyət istiqamətləri müzakirə olunub.

Azərbaycan.- 2021.- 3 noyabr.- S. 2.